*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 avqust 2017-ci il № 58 (2175) Qiymət 25 qəpik


# Bakıda "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının təntənəli açılış mərasimi keçirilib



*Avqustun 1-də Dənizkənarı Milli Parkda "Beynəlxalq Ordu Oyunları-2017" çərçivəsində Bakıda təşkil edilən "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının təntənəli açılış mərasimi keçirilib.*

Açılış mərasimində şəhər sakinləri, hərbçilər və xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan haqqında videoçarx nümayiş etdirilib, yarışların simvolu olan qayıq mərkəzə gətirilib.

Sonra bayraqdarlar meydana daxil olub. "Azərbaycan fanfarası" ilə tədbirin başlandığı elan edilib.

Yarışların hakimlər briqadası və komandalar mərasimə dəvət olunub.

Azərbaycan Respublikasının dövlət himni ifa edilib, dövlət bayrağımız qaldırılıb.

Sonra Beynəlxalq Ordu Oyunlarının və "Dəniz Kuboku-2017" yarışlarının bayraqları qaldırılıb.

Mərasimdə çıxış edən "Dəniz Kuboku-2017" beynəlxalq yarışları təşkilat komitəsinin sədri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov bildirib ki, bu gün Bakıda III Beynəlxalq Ordu Oyunları çərçivəsində "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarına start verilir. Artıq bir neçə gündür ki, Rusiya Hərbi Dəniz Donanmasının Xəzər Flotiliyasının, İran İslam Respublikasının və Qazaxıstan Respublikasının gəmiləri Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarında iştirak etmək üçün ölkəmizə gəlib.

**(Ardı 2-ci səhifədə)**

# Bakıda "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının təntənəli açılış mərasimi keçirilib





(Əvvəli 1-ci səhifədə)

Qeyd edilib ki, Beynəlxalq Ordu Oyunları Rusiya Federasiyasının Müdafiə Nazirliyinin təşəbbüsü ilə təşkil olunub. Beynəlxalq Ordu Oyunlarının tərkib hissəsi olan "Xəzər-2015" müsabiqəsinin nəticələrinə görə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası 3-cü, "Xəzər-2016" müsabiqəsində isə 2-ci yerə layiq görülüb və "Admiral-480" motorlu qayığı ilə mükafatlandırılıb. İki gün öncə isə III Beynəlxalq Ordu Oyunlarına Moskvanın Alabino poliqonunda start verilib. Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri yarışların beş növündə güclərini sınayacaqlar. III Beynəlxalq Ordu Oyunları çərçivəsində Azərbaycanda keçirilən "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının şəffaf və yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Azərbaycanın Xəzər dənizindəki ərazi sularında iştirakçılar üç mərhələ və altı epizodda yarışacaqlar.

Diqqətə çatdırılıb ki, Beynəlxalq Ordu Oyunlarının digər yarışları kimi "Dəniz Kuboku-2017" də iştirakçı ölkələrin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin inkişafına, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə, dostluq və rəqabət gücünün artırılmasına, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarının daha da yüksəlməsinə xidmət edəcək.



Sonra Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Dəniz Kuboku-2017" yarışlarının iştirakçılarına təbrik məktubunu oxuyub.

Məktubda bildirilir ki, bu gün Azərbaycan yeni bir yarışa - möhtəşəm idman birinciliklərindən seçilməyən Beynəlxalq Ordu Oyunlarının tərkib hissəsi olan "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarına ev sahibliyi edir. Bu yarışların Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçirilməsi heç də təsadüfi deyil. Azərbaycan artıq dünyada idman dövləti kimi tanınır. Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 kimi möhtəşəm yarışların, dünya hərbçilərinin güləş, boks, futbol üzrə çempionatlarının ölkəmizdə keçirilməsi bunu bir daha təsdiqləyir və bu missiya bu gün də uğurla davam etdirilir. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzunun, siyasi, iqtisadi, mədəni, idman, eləcə də ordu quruculuğu sahəsində qazandığı uğurların nəticəsidir.

Vurğulanır ki, Beynəlxalq Ordu Oyunları hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədinə xidmət edir. "Dəniz Kuboku-2017" hərbi qulluqçularda həmrəylik hissi oyatmaqla bərabər, həm də bütün iştirakçıların yaddaşında xoş xatirə olaraq qalacaq.

Qeyd edilir ki, Xəzər dənizi tarixən sahillərində yaşayan xalqların ümumi sərvəti olub. "Dəniz Kuboku-2017" beynəlxalq yarışları da ölkələrimiz arasında qarşılıqlı əlaqələrin, dəniz təhlükəsizliyi sahəsində əməkdaşlığın daha da güclənməsinə, Xəzər dənizinin sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonası olaraq qalmasına öz töhfəsini verəcək.

Daha sonra nazir "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarını açıq elan edib.

Təntənəli mərasim başa çatdıqdan sonra incəsənət ustalarının, Azərbaycan Silahlı Qüvvələri və Rusiya Cənub Hərbi Dairəsinin mahnı və rəqs ansambllarının iştirakı ilə səhnələşdirilmiş kütləvi bədii proqram nümayiş etdirilib.

Qeyd edək ki, yarışlarda Azərbaycan, Rusiya, İran və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin gəmi heyətləri, eləcə də müşahidəçi qismində Türkiyə, Səudiyyə Ərəbistanı və Bəhreyn Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

Tədbir atəşfəşanlıqla sona çatıb.





# Azərbaycan hərbçiləri "Səhra mətbəxi" müsabiqəsində iştirak edir

*"Beynəlxalq Ordu Oyunları - 2017" yarışları çərçivəsində keçirilən "Səhra mətbəxi" müsabiqəsində iştirak edən Azərbaycanın hərbi aşpazlarının hazırladıqları təamlar qonaqlara təqdim edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan, Rusiya, Belarus, Serbiya, Monqolustan və İsrailin hərbi aşpazları yarışların iştirakçıları və qonaqlar üçün milli mətbəxlərinə aid 150-dən çox yeməklər hazırlayıblar. Müsabiqəni izləyən çoxsaylı qonaqlar hərbçi aşpazlarımızın hazırladıqları xörəklər və şirniyyatların dadına baxıblar.



Müsabiqə çərçivəsində Azərbaycanın milli mədəniyyətini əks etdirən sənət nümunələri və musiqi alətləri də nümayiş etdirilib.

# Ermənistan silahlı qüvvələri Qazax, Ağstafa və Tovuz rayonlarının yaşayış məntəqələrini atəşə tutub

İyulun 30-a keçən gecə və səhər saatlarında Qazax rayonunun Bala Cəfərli, Quşçu Ayrım, Ağstafa rayonunun Köhnəqışlaq və Tovuz rayonunun Qaralar kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən iriçaplı silahlardan intensiv atəşə məruz qalıb. Yaşayış məntəqələrindəki mülki obyektlərə, əkin sahələrinə və əhalinin şəxsi təsərrüfatına ziyan dəyib.

Düşmən atəşinin qarşısı alınarkən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Əkbərli Hüseyn Zakir oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

Hazırda cəbhə xətti boyu əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Müdafiə Nazirliyi bir daha bəyan edir ki, düşmənin bu təxribatına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri görüləcəkdir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Dəniz Kuboku-2017" müsabiqəsinin şəffaf və yüksək səviyyədə keçirilməsi üçün hər cür şərait yaradılıb

## "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin başlanması ilə əlaqədar mətbuat konfransı keçirilib

*Bakıda keçiriləcək "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsində yarışlara qatılacaq Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gəmiləri və şəxsi heyəti tam hazır vəziyyətdədir. Beynəlxalq yarışların şəffaf və yüksək səviyyədə keçirilməsi üçün Müdafiə Nazirliyinin rəhbərliyi hər cür şərait yaradıb.*




AZƏRTAC xəbər verir ki, bu sözləri avqustun 1-də Hərbi Dəniz Qüvvələrinin qərargahında iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlərin iştirakı ilə "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin başlanması ilə bağlı təşkil olunan mətbuat konfransında yarışların baş hakimi, birinci dərəcəli kapitan Şahin Məmmədov deyib.

Ş.Məmmədov bildirib ki, avqustun 1-dən 11-dək Azərbaycan, Rusiya, İran və Qazaxıstan hərbi gəmilərinin iştirakı ilə keçiriləcək "Beynəlxalq Ordu Oyunları-2017" yarışları çərçivəsində Bakıda "Dəniz Kuboku-2017" müsabiqəsi təşkil olunacaq. Müsabiqə üç mərhələdə - artilleriya atəşlərinin yerinə yetirilməsi, gəminin dayanıqlığı uğrunda mübarizə, xilasetmə və dəniz hazırlığı üzrə keçiriləcək. Müsabiqənin yüksək səviyyədə keçirilməsi üçün liman körpüləri, təlim-məşq kompleksləri və digər təlim mərkəzləri tam hazır vəziyyətdədir. Artıq yarışda iştirak edəcək komandaların məşqləri olub.

Qeyd edilib ki, müsabiqənin məqsədi iştirakçı ölkələrin silahlı qüvvələrinin şəxsi heyətinin döyüş hazırlığının artırılması, təcrübə mübadiləsi və hərbi qulluqçular arasında dostluq münasibətlərinin yaranmasıdır. "Dəniz Kuboku-2017"də Azərbaycan Hərbi Dəniz Qüvvələrinin "G-124", "G-122" gözətçi gəmiləri, Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasından "Qrad Sviyajsk" kiçik raket, "CB-45" xilasetmə yedək gəmisi, İran Hərbi Dəniz Qüvvələrinin "Peykan", "Cövşən" raket gəmiləri və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Qazaxıstan", "Sarıarka" raket-artilleriya və "Jayık" hidroqrafiya gəmiləri iştirak edəcək. İştirakçılar üç mərhələdə altı epizoddan ibarət yarışlarda gücləri sınayacaqlar.

Diqqətə çatdırılıb ki, "Dəniz Kuboku-2017" beynəlxalq yarışının təntənəli açılış və bağlanış mərasimləri müvafiq olaraq avqustun 1-də və 11-də keçiriləcək.



Rusiya Hərbi Dəniz Donanmasının "Dəniz Kuboku-2017" yarışlarına tam hazır olduğunu deyən Rusiya nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Sergey Ekimov yarışların keçirilməsi üçün yaradılan yüksək səviyyəli şəraitə görə təşəkkürünü bildirib.

Qazaxıstan nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Ermek Bayqabulov və İran nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Seydi Mahmud Amuzeş yarışlara hazırlığın yüksək səviyyədə olduğunu bildiriblər.

Mətbuat konfransı zamanı iştirakçı heyətlər tərəfindən döyüş hazırlığı poliqonlarına çıxış, müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə məşqlərin keçirilməsi haqqında ətraflı məlumat verilib. Həmçinin jurnalistlərin iştirakı ilə müsabiqəyə cəlb olunan gəmilərə, xüsusi texnikalara, silahlara baxış keçirilib, onların təyinatına dair qısa brifinq verilib və jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, iyulun 29-dan avqustun 12-dək 5 ölkə - Azərbaycan, Belarus, Qazaxıstan, Çin və Rusiya ərazisində keçiriləcək "Beynəlxalq Ordu Oyunları-2017" yarışlarında Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### “Artilleriya atəşinin ustaları” müsabiqəsinin püşkatma mərasimi keçirilib

"Beynəlxalq Ordu Oyunları - 2017" çərçivəsində avqustun 1-dən 9-dək Qazaxıstanın Otar hərbi bazasında keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqələrinin püşkatma mərasimi keçirilib.

Püşkatmanın nəticələrinə əsasən Azərbaycan komandası Venesuela, Qazaxıstan və Tacikistan komandaları ilə bir qrupda çıxış edəcək.

İştirakçılar texnikanı qəbul etdikdən sonra silahlardan sınaq atışları icra edəcəklər.

Qeyd edək ki, digər qrupda Rusiya, Belarus, Zimbabve və Qırğızıstan komandaları iştirak edir.

### Azərbaycan hərbçiləri "Dostluq Ev"ində mədəniyyət nümunələrimizi nümayiş etdiriblər

Moskva şəhəri yaxınlığındakı Alabino hərbi poliqonunda yaradılmış "Dostluq Evi"ndə "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarında iştirak edən dövlətlərin nümayəndələri öz ölkələrinin mədəniyyət nümunələrini nümayiş etdiriblər.

Beynəlxalq oyunlarda iştirak edən nümayəndələr və qonaqlar sərginin Azərbaycana aid bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri, məişətinə aid eksponatlarla yaxından tanış olmaq imkanı əldə ediblər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*2 avqust 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 135 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# “Torpaqlarımız azad ediləcək”



*Ümummilli liderimiz Heydər Əliyev 1996-cı ildə Azərbaycan gənclərinin birinci forumunda çıxışında gənclərin qarşısında dayanan əsas vəzifələri xatırladaraq Vətənə şərəflə xidmət etməyin və hərbi peşələri seçərək ordu quruculuğunda yaxından iştirak etməyin nə dərəcədə gərəkli olduğunu da demişdir.*

Doğrudan da, müstəqillik əldə etdiyimiz ilk günlərdə, ordumuzun formalaşdığı illərdə ürəyində Vətən, millət, torpaq sevgisi olan gənclərimiz talelərini hərbi işə bağladılar. İllər bir-birini əvəzlədikcə bu hal daha da geniş vüsət aldı. Yeniyetmələr Vətənin sinəsinə çəkilən dağı anlayıb dərk etdilər. Çoxları böyüdükcə hərb sənətini tale yolu seçdilər. Onlardan biri də baş leytenant Elvin Kazımovdur.

Elvin hələ erkən yaşlarında zabit olmaq qərarına gəlir. 14 yaşlı yeniyetmə sənədlərini əsası Ulu Öndərimiz tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verir. İlk sıra addımlarını atdığı günlər həyat yolunun başlanğıcı, aldığı hərbi təhsil tutduğu yolun çırağı olur. 2006-cı ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur.

Oxuduğu illərdə Elvini maraqlandıran, düşündürən əsas məqsəd Vətəni üçün gərəkli bir peşənin - zabit sənətinin bacarıqlı sahibi olmaq üçün hərbi biliklərə dərindən yiyələnmək idi. Bundan ötrü ideal hesab etdiyi tarixi sərkərdələrimizin, ali rütbəli zabitlərimizin ömür yolunu özünə örnək bilirdi.

Beləliklə, gənc zabit Elvin Kazımov 2010-cu ildə ilk hərbi rütbə alaraq Vətən, torpaq, xalq, millət yolunda son damla qanına qədər döyüşəcəyinə and içir. Leytenant hərbi rütbəsini aldığı günü ömrünün ən əlamətdar günü hesab edir. Ona elə gəlir ki, həmin gün ömür kitabının ən təmiz səhifələrinə qızıl hərflərlə yazılıb.

İlk hərbi vəzifəsinə ön xətdə yerləşən hərbi hissələrdən birində başlaması onun ürəyindən xəbər verirdi. Yuxusuz gecələr, düşmənlə üzbəüz keçən günlər, cəbhə bölgəsinin özünəxas xüsusiyyətləri Elvinin qısa müddətdə bacarıqlı zabit kimi formalaşmasına zəmin yaradır. İllər bir-birini əvəz edir. İndi bir vəzifə irəli çəkilib və daha məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gəlir. "Torpaqlarımız azad olana, Qarabağ həsrəti bitənə qədər ön xətdə xidmət edəcəyəm. Qardaşım Elçin Kazımov da cəbhədəki hərbi hissələrdən birində zabitdir. Biz uşaq olanda atam deyirdi ki, sizlər mənim övladım, lakin bu torpağın oğlusunuz. Odur ki, hər ikimiz Vətən torpağı uğrunda döyüşməyə hazırıq", - gənc zabit deyir.

Elvini də daim Vətən təəssübü narahat edir. Cəbhə xəttində xidmətini bölük komandiri kimi davam etdirən vətənpərvər zabitin qarşısında mühüm bir tapşırıq dayanır: tabeliyində olan şəxsi heyəti daim döyüşə hazır vəziyyətdə saxlamaq, onların mənəvi-psixoloji ruhunu yüksək tutmaq.

Təhsil aldığı illərdə öyrəndiklərinə, oxuduğu yeniliklərə istinadən tabeliyində xidmət edən əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsini təmin edən gənc zabitimizə Vətənimizin qorunması uğrunda müqəddəs mübarizədə uğurlar arzulayırıq.

**Baş leytenant Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto Coşqun CƏFƏROVUNDUR**



"Beynəlxalq Ordu Oyunları - 2017" çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçiriləcən "Snayper həddi" müsabiqəsində silahların qəbulu və atışlara hazırlıq işləri yekunlaşıb.

# “Snayper həddi” müsabiqəsində Azərbaycan snayperləri ustalıqlarını nümayiş etdirəcəklər

Yarışlarda iştirak edən Azərbaycan Silahlı Qüvvələrinin snayperləri SVD-S silahından atəş açmaqla öz ustalıqlarını nümayiş etdirəcəklər.

Qeyd edək ki, yarışlarda 17 ölkənin komandası iştirak edir.

Qazaxıstanda keçiriləcək yarışlar avqustun 1-dən 9-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**





Beynəlxalq Ordu Oyunlar çərçivəsində "Tank biatlonu" müsabiqəsinin "Fərdi sürmə" mərhələsinə start verilib.

# Azərbaycan tankçıları “Tank biatlonu” müsabiqəsinin ilkin mərhələsində iştirak ediblər

T-72B3 tankında yarışlarda iştirak edən Azərbaycan heyəti Küveyt və Monqolustan komandalarını geridə qoyaraq ilkin mərhələni öz qruplarında 2-ci yerdə başa vurublar.

"Tank biatlonu" müsabiqəsində 19 ölkədən 55 tank heyəti iştirak edir və yarışlara avqustun 12-də yekun vurulacaq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# “Beynəlxalq Ordu Oyunları - 2017” yarışlarının açılışında Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı çıxış edib



Rusiya Federasiyasının Alabino hərbi poliqonunda keçirilən "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarının açılış mərasimində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Mahnı və Rəqs Ansamblının xoreoqrafiya qrupu çıxış edib.

28 müsabiqə üzrə keçirilən "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarında 28 ölkənin 3500-dən çox hərbi qulluqçusu iştirak edir.

Yarışlar avqustun 12-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəhidlərin xatirəsinə həsr olunmuş layihə həyata keçiriləcək

Salyan rayonunda fəaliyyət göstərən "Ana Kür" ekoloji problemlərin öyrənilməsinə kömək İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə icra olunacaq "Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş salyanlı gənclərin xatirəsinə həsr olunan tədbirlərin təşkili" adlı layihənin təqdimatını keçirib.

AZƏRTAC xəbər verir ki, tədbirdə şəhid valideynləri, rayon icra hakimiyyətinin məsul işçiləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Salyan rayon şöbəsinin, təhsil, idman və gənclər idarələrinin, ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

Əvvəlcə Salyan şəhidlərinin xatirəsinə şəhərin mərkəzində ucaldılmış xatirə kompleksi önünə və Milli Qəhrəman Nazim Babayevin büstü qarşısına gül dəstələri düzülüb.

Dövlət Rəsm Qalereyasında keçirilən mərasimdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İctimai Birliyin sədri, layihə rəhbəri Rüstəm Məlikov layihənin məqsəd və vəzifələri, layihə rəhbərinin köməkçisi Nəbi İbrahimov isə həyata keçiriləcək tədbirlər və gözlənilən nəticələr haqqında məlumat veriblər.

Tədbirdə rayon Ağsaqqallar Şurasını sədri Beydulla İmanov, Sarvan kənd sakini Cahangir Qaraşov, Yuxarı Xalac kənd sakini, aprel döyüşlərində şəhid olmuş Rəşid Mehdiyevin atası Rövşən Mehdiyev çıxış edərək, şəhidlərin xatirəsinə həsr olunmuş layihənin həyata keçirilməsinə görə minnətdarlıqlarını bildiriblər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Salyan rayon şöbəsinin rəis müavini Tağı Həsənov, Qarabağ müharibəsi veteranları və şəhid ailələri İctimai Birliyinin sədri Arif Əsgərov, Müharibə Veteranları İctimai Birliyinin sədri Vilayət Əsgərov və başqaları çıxış edərək, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş salyanlı gənclərin xatirəsinə həsr olunan tədbirlərin daha məzmunlu keçirilməsi üçün təkliflərini səsləndiriblər.

Üç ay davam edəcək layihə ərzində doğum günləri qeyd ediləcək şəhidlərin ailələrinə baş çəkiləcək, Bakı şəhərində Şəhidlər xiyabanı ziyarət olunacaq, təhsil müəssisələrində maarifləndirici tədbirlər keçiriləcək, ekoloji tədbirlər, ağacəkmə kampaniyası təşkil ediləcək.

*Tibb xidməti*

# “Əsgərin sağlamlığı keşiyində dayanmaq mənə qürur verir”

*Tibb elmi və onun inkişafını sürətləndirən müasir texnologiya təbii ki, insanların sağlamlığının xidmətinə yönəldilib. Bu müasirlik ölkəmizdə də tibbin bütün sahələrinin inkişafına stimul olur, daha sürətlə irəli getməsini gerçəkləşdirir. Hərbi tibb sahəsində inkişaf bu baxımdan reallığı əks etdirir. Respublikamızın hərbi tibb sahəsi inkişaf səviyyəsinə görə Cənubi Qafqazda birincilər sırasındadır.*



"N" hərbi hissənin tibb məntəqəsi ikimərtəbəli müasir, geniş və işıqlı bir binada yerləşir. Tibb personalı hərbiçilərimizin sağlamlığı keşiyində dayanır, onlara layiqincə xidmət göstərirlər. Tibb məntəqəsi 2012-ci ildə istifadəyə verilib. Kabinetlər müasir tibbi avadanlıqlarla təmin edilib. Fizioterapiya, stomatologiya, rentgen, ümumi diaqnostika (kardiologiya və oftalmologiya) kabinetləri fəaliyyət göstərir. Qəbul otağında çeşidləmə prosesi aparılır. Xəstəlik, xəstəliyin diaqnozu dəqiqləşdirilir. Tibb məntəqəsindəki stasionar və izolyasiya (təcrid) otaqları hazırlıq vəziyyətindədir.

Tibb məntəqəsinin həkim - terapevti leytenant Rauf Nəcəfov 2015-ci ildən ürəyinin səsi ilə hərbi xidmətə gəldiyini, burada xidmət etdiyini deyir: "İllərdir, ölkəmizdə müharibə gedir. Torpaqlarımız işğal altındadır. Bu gün mənə Vətənin daha çox ehtiyacı var deyə düşündüm. Hərbi həkim adını daşımağımla fəxr edirəm. Vətənimi qoruyan əsgərlərin sağlamlığı keşiyində dayanmaq mənə qürur verir".

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, Vətənə sağlam gənclik, sağlam əsgər gərəkdir...

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu"**

# Düşmən tərəfi öz uğursuzluqlarını ört-basdır etmək üçün növbəti hiyləyə əl atıb

Son zamanlar Ermənistan ordusunda artmaqda olan ölüm və ağır bədən xəsarətləri ilə nəticələnən cinayət tərkibli hadisələrdən erməni ictimaiyyətinin diqqətini yayındırmaq məqsədilə düşmən planlaşdırılmış təxribatlar həyata keçirir.

Belə tədbirlərdən biri də Ermənistan tərəfindən sosial şəbəkələrdə azərbaycanlı adı altında saxta profillər yaratmaqla guya Azərbaycan Ordusunda müxtəlif hadisələrin baş verdiyini iddia edən yalan məlumatların vaxtaşırı yayılmasıdır.

Aparılan araşdırma nəticəsində məlum olmuşdur ki, Azərbaycan Ordusu barədə yalan, iftira, təxribat məqsədli xəbər yayan "Tofiq İbrahimov" adlı facebook profili Ermənistanın xüsusi xidmət orqanları tərəfindən yaradılaraq idarə edilir, həmin profildə paylaşılan bütün hadisələr uydurmadır, ad və soyadları çəkilən şəxslərin Silahlı Qüvvələrə heç bir aidiyyəti yoxdur.

Müdafiə Nazirliyi bildirir ki, düşmən tərəfindən sosial şəbəkələrdə məqsədyönlü şəkildə yaradılan saxta səhifələrdə ordumuzla əlaqədar yayılan neqativ məlumatlar təxribat xarakteri daşıyır və heç bir reallığı əks etdirməyən bu kimi xəbərlərin gələcəkdə də yayılacağı istisna edilmir.

Bir daha kütləvi informasiya vasitələrinin nümayəndələrini, sosial şəbəkə istifadəçilərini və ictimaiyyəti diqqətli olmağa, düşmən təbliğatına uymamağa, Ermənistanın bu cür təxribatlarına qarşı qlobal internet məkanında və mətbuatda aktiv əks-fəaliyyət göstərməyə çağırırıq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Qazaxıstanda "Artilleriya atəşinin ustaları" və "Snayper həddi" müsabiqələrinin təntənəli açılış mərasimi keçirilib



*"Beynəlxalq Ordu Oyunları-2017" çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında "Artilleriya atəşinin ustaları" və "Snayper həddi" müsabiqələrinin təntənəli açılış mərasimi keçirilib.*

Qeyd edək ki, Azərbaycan hərbçilərinin də iştirak etdiyi hər iki müsabiqə avqustun 1-dən 9-dək Qazaxıstanın Otar hərbi bazasında keçiriləcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



# "Gənc Heydərçilər"in yay düşərgəsi başa çatdı

*Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyətinin birgə həyata keçirdiyi "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi on gündən artıq davam etmişdir. Bu tədbirin başlıca qayəsi gənc nəslin vətənpərvərlik, dövlətçilik ruhunda tərbiyə olunması idi.*

Səbail rayonundan təhsildə və idmanda fərqlənən, eləcə də xüsusi istedada malik, həmçinin cəbhə bölgəsində xidmət edən hərbi qulluqçuların övladları daxil olmaqla 150 nəfər yeniyetmənin cəlb olunduğu yay istirahət düşərgəsi "N" hərbi hissəsində reallaşıb. Bu, şagirdlərə hərbi biliklər aşılanmasına zəmin yaradıb.

"Gənc Heydərçilər" əsgər kazarmalarından birində yerləşdirilmişdi. Burada onlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, ordu quruculuğuna, milli qəhrəmanlarımıza həsr olunmuş stendlərlə, hərbi təlimatlarla, şəxsi heyətin gündəlik həyat və fəaliyyəti ilə, hərbi hissədəki şəraitlə, döyüş texnikası və silahlarla tanış olublar. Yeniyetmələrin ordu haqqında təəssüratları xeyli zənginləşib.

Düşərgəyə yola düşməzdən əvvəl məktəblilərə xüsusi formalar paylanılıb. Yeniyetmələr gündə 4 dəfə yüksək kalorili yeməklə, meyvə-tərəvəzlə, süd məhsulları ilə təmin olunub. Onların təlim-tərbiyəsi ilə rayon orta məktəblərində çalışan idman və çağırışaqədərki ibtidai hazırlıq müəllimləri, hərbi hissənin zabitlərindən, çavuş və əsgərlərdən ibarət qrup məşğul olub. "Gənc Heydərçilər" Quba, Qusar, Xaçmaz rayonlarına gəzinti zamanı Heydər Əliyev mərkəzlərində, Gənclər evində, Xalça və şəxsiyyətlər muzeylərində, Şahdağ qış-yay turizm kompleksində olublar. Yeniyetmələrin Quba Soyqırımı Memorial Kompleksinə gəzintisi də təşkil olunub. Məktəblilər Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən təxribatının qarşısını alarkən 2016-cı ilin dekabr ayının 29-da şəhid olan Çingiz Qurbanovun məzarını da ziyarət ediblər.

Yeniyetmələrə sonuncu gün "Qayı bulaq" restoranında ziyafət təşkil olunub. Məktəblilər ənənəyə sadiq qalaraq tonqal qalayıblar.



On gündən artıq davam etmiş "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi başa çatan gün təntənəli mərasim keçirilib. Mərasim başlamazdan əvvəl Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov, polkovnik Mehman Kərimov, Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova, Qusar rayon İcra Hakimiyyəti Başçısının müavini Zoya Eldarova və başqa qonaqlar hərbi hissənin ərazisində ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar. Qonaqlar sıra meydanında "Gənc Heydərçilər"in 4 illik fəaliyyətindən bəhs edən plakatlara baxıblar. Sonra "Gənc Heydərçilər" iştirakçılar qarşısında düşərgədə olduqları müddətdə öyrəndikləri bilik və vərdişləri nümayiş etdiriblər - əleyhqaz geyiniblər, atıcı silahları natamam söküb-yığıblar, döyüş meydanında qalmış "yaralıya" ilk tibbi yardım göstərildikdən sonra onu xərəkdə döyüş meydanından çıxarıblar.

"Gənc Heydərçilər"dən ibarət "xüsusi təyinatlılar" öz məharətlərini göstəriblər. Düşərgədə məktəblilər üçün bir sıra idman növü üzrə yarışlar təşkil olunub, qaliblər müəyyən edilib.

Bağlanış mərasimi də maraqlı keçdi. Müdafiə Narizliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev mərasimi açıq elan etdi. Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himnini oxudular. Sonra "Gənc Heydərçilər" təntənəli marşla qonaqların qarşısından keçdilər.

Tədbirdə çıxış edən polkovnik Mehman Kərimov "Gənc Heydərçilər"in təlim və tərbiyəsindən razı qaldığını, yeniyetmələrin hərbi xidmət haqqında müəyyən məlumatlar əldə etdiyini, bir çoxunun gələcəkdə bu peşənin davamçıları olacağına əminliyini bildirdi.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxışında ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeniyetmə və gənclərimizin sağlam böyüməsi, gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən söz açaraq, gələcək nəslin Vətənə sevgi və məhəbbət ruhunda tərbiyəsi istiqamətində belə düşərgələrin rolunu yüksək qiymətləndirdi.

İdman yarışlarında, nizam-intizamda fərqlənmiş məktəblilərə mükafat və hədiyyələr təqdim olundu. Həmçinin, "Gənc Heydərçilər"in mənalı istirahətini təşkil etmiş hərbçilər və mülki əməkdaşlar mükafatlandırıldılar.

Maraqlı istirahətdən sonra Bakıya qayıdan yeniyetmələr, onların valideynləri bu gözəl və yaddaqalan tədbirə görə ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər.





**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

*Nümunəvi xidmət*

# Qələbəni təmin edən əsas amillərdən biri...

*Döyüşdə qələbənin qazanılmasında hər bir qoşun növünün özünəməxsus rolu var. Belə ki, bir qoşun növünün rolu digəri ilə müqayisə oluna bilməz, çünki hər biri özəlliyi ilə fərqlənir. Döyüşün uğurla başa çatdırılmasında mühüm rol oynayan vasitələrdən biri də hərbi bölmələr arasında möhkəm və etibarlı rabitənin təmin edilməsidir.*



"N" hərbi hissəsinin artilleriya divizionunda rabitə bölməsinin fəaliyyəti ilə tanışlıq zamanı əmin olduq ki, Azərbaycan Silahlı Qüvvələrinin rabitə bölmələri üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə qadirdir.

Son illər Azərbaycanda rabitəçi hazırlığı da yüksək səviyyədə aparılır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirmələrinin bilik səviyyəsi və hazırlığı xüsusilə diqqəti cəlb edir. Belə vətənpərvər zabitlərin rabitə bölməsində xidmət etməsi rabitəçi əsgərlərin hazırlığında da mühüm rol oynayır.

Rabitəçi əsgər Sərxan Mahmudlu tarixi torpaqlarımızın işğalçılardan təmizlənməsində onların da üzərinə böyük məsuliyyət düşdüyünü bildirir: "Gördüyünüz rabitə qurğuları vasitəsilə müxtəlif qoşun növləri arasında əlaqə yaradır, düşmənin istehkam qurğuları, artilleriya batareyaları, sığınacaqları, eləcə də digər strateji hərbi obyekt və məntəqələri, canlı qüvvəsi barədə koordinatları komandir heyətinə ötürürük. Eyni zamanda, rabitə vasitələ taborlarla qərargahlar arasında da rabitəni təmin edirik. Mövcud radiorabitə qurğuları geniş imkanlara malikdir".

Əsgər Sərxan Mahmudlu hesab edir ki, cəbhənin ön xətdəki bölmələri ilə fasiləsiz rabitəni təşkil etmək onun üzərinə düşür: "Bu da məsuliyyət və cavabdehlik tələb edir. Çünki rabitəçi daim ön sıralarda olmalı, vacib məlumatları komandirə vaxtında çatdırmalıdır".

Kəlbəcər rayonunda dünyaya göz açan zabit hesab edir ki, uğur qazanmağın əsas yolu yüksək biliklərə yiyələnməkdən keçir: "Ən böyük arzum Kəlbəcəri və digər torpaqlarımızı azad görməkdir. Əlbəttə, hazırlıqlı Azərbaycan Ordusu bu gün bu vəzifənin öhdəsindən gəlməyə qadirdir. Ordumuzun günbəgün qüdrətlənməsi, əsgərə xüsusi diqqət və qayğı bizi daim ruhlandırır. Zabitlərimizdən öyrəndiklərimiz, təlimlərdə mənimsədiklərimiz qələbəni təmin edəcəkdir..."

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
N.PƏNAHOVUNDUR**

*Hərbi ənənələr, yeniliklər*

# "T-155 Yavuz" özüyeriyən artilleriya qurğusu

*Hal-hazırda Türkiyənin quru qoşunları müxtəlif toplarla silahlanmış çoxlu sayda özüyeriyən artilleriya qurğusuna malikdir. Daha perspektivli haubitsalardan biri Makina və Kimya Endüstrisi Kurumu korporasiyası və Aselsan şirkətinin birgə əməkdaşlığı çərçivəsində hazırlanmış özüyeriyən artilleriya qurğusudur.*

Yeni özüyeriyən artilleriya qurğusu "T-155 Yavuz"-dur. "Yavuz"un ilk nümayişi Birləşmiş Ərəb Əmirliyində keçirilən İDEX-2017 sərgisində, yeni nümunənin sonrakı nümayişi isə İstanbulda İDEFF sərgisində olub. Ona olan əsas tələblərdən biri yüksək taktiki və strateji mobillik və istismarda sadə olmasıdır. Özüyeriyən artilleriya qurğusunun əsasını MAN alman şirkətinin yük maşınıdır. 480 at gücündə dizel mühərriki ilə təchiz edilib. Mövcud şassi şose yolda saatda 90 kilometr sürətlə getməyə imkan verir.

Artilleriya qurğusunun şassisində müxtəlif aqreqatların quraşdırılması nəzərdə tutulub. Heyətin rahat yerləşdirilməsi üçün kabinəsi iki cərgəli oturacaqla, həmçinin, heyəti mərmi və gülļədən qorumaq üçün yüngül zirehlə təchiz edilib. "T-155 Yavuz" artilleriya qurğusu kütləvi qırğın silahından qorunmaq üçün kollektiv mühafizə sistemi ilə də təmin olunub. Heyətin çıxıb-düşməsi üçün təkərlərin qabaq və arxa hissəsi iki cüt pilləkənlə təchiz edilib. Qutuvari quruluşlu korpusun müəyyən hissəsi döyüş sursatlarının qorunması üçün ayrılıb. Arxa hissəsi bortdan ibarətdir ki, burada da əlavə top qurğuları qorunub saxlanılır. Gövdənin mərkəzində yeşiklərdə mərmi və atıcı təchizatlar yerləşdirilib. Əsas aqreqat mənbəyi kimi Türkiyə ordusunda istismarda olan 155 mm-lik yedəkli Panter haubitsası seçilib. Top qurğusunun yırğalanan hissəsi birbaşa tuşlayıcıdan və eləcə də örtülü mövqelərdən atəş açmaq üçün istifadə olunan nişangah sistemi ilə təchiz edilib. Topun sol tərəfində nişangah və onun idarə olunması üçün bəzi hissələr də quraşdırılıb.



"T-155 Yavuz" özüyeriyən artilleriya qurğusu lüləsinin uzunluğu 52 kalibrli 155 mm-lik kəsikli topla təchiz edilib. Top ikikameralı ağızlı tormoz və elektrik naqilli porşenli yarımavtomat çaxmaqla komplektləşdirilib. 155 mm-lik haubitsada NATO standartlarına uyğun bütün döyüş sursatlarından istifadə oluna bilər. Müasir tələblərə uyğun olan atəşi idarəetmə sisteminə malikdir. Onun tərkibinə naviqasiya vasitələri, ballistik hesablayıcı, distansion idarəolunan pult daxildir. Pult vasitəsi ilə tuşlayıcı-operator atəşə hazırlıq və atəş açmağa lazım olan bütün əməliyyatları həyata keçirə bilər. Onun yuxarı hissəsində iri kalibrli pulemyot və başqa silahları bərkitmək üçün dairəvi mexanizm bərkidilib. Sistemin bütün işlərini sürücü, tuşlayıcı, komandir və iki nəfər təchizatçı həyata keçirir. Maşının uzunluğu 10,8 m, eni 2,6 m, hündürlüyü 4,1 metrdir. Döyüş çəkisi komplekrləşdirilməsindən asılıdır.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Əfqanıstanda İraq səfirliyinə hücum edən silahlıların hamısı öldürülüb



Əfqanıstanın təhlükəsizlik qüvvələrinin əməkdaşları Kabil şəhərində İraq səfirliyinə hücum edən silahlı şəxslərin hamısını zərərsizləşdirib.

Əfqanıstan Daxili İşlər Nazirliyinin məlumatına əsasən, hücumda biri terrorçu-kamikadze olmaqla dörd silahlı iştirak edib. Onlardan biri səfirliyin girişində partlayış törədib. Sonradan binaya daxil olan silahlılarla döyüş təxminən dörd saat davam edib. Partlayış zamanı səfirliyin iki əfqan mühafizəçisi həlak olub.

Hadisənin məsuliyyətini İŞİD qruplaşması öz üzərinə götürüb.

### ABŞ və Cənubi Koreya ballistik raketlərin təlim buraxılışını həyata keçiriblər



ABŞ və Cənubi Koreya Şimali Koreyanın növbəti raket buraxılışına cavab olaraq ballistik raketlərin təlim buraxılışını həyata keçiriblər.

Təlim buraxılışında Cənubi Koreyanın "Xenmu-2" və ABŞ-ın ATACMS raketləri istifadə olunub.

Xatırladaq ki, Şimali Koreya növbəti ballistik raket buraxılışını həyata keçirib. Raket Caqando vilayəti rayonundan Yapon dənizi istiqamətində buraxılıb. Yaponiya Nazirlər Kabinetinin baş katibi Yesixide Suqa Şimali Koreyanın bu addımının BMT Təhlükəsizlik Şurasının qətnaməsinin açıq şəkildə pozulması kimi dəyərləndirib.

### Çin hərbi paradda yeni qitələrarası ballistik raket nümayiş etdirib



Bazar günü Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 90 illiyi münasibətilə keçirilən hərbi paradda milli istehsal olan yeni DF-31AG qitələrarası ballistik raket ilk dəfə nümayiş etdirib.

Çin mərkəzi Televiziyasının reportajında raketin maksimal uçuş məsafəsinin 10 min kilometrə çatdığı qeyd olunub. Paradda 12 minə yaxın hərbi qulluqçu və aralarında 100-dən çox təyyarənin olduğu 600 hərbi texnika iştirak edib. Silahların bir çox nümunələri ilk dəfədir nümayiş etdirilir.

Çin Xalq Azadlıq Ordusunun tarixi 1927-ci il avqustun 1-nə, Nançan üsyanına gedib çıxır. Çin Xalq Respublikasının (ÇXR) gələcək hərbi-siyasi rəhbərliyinin özəyinin əsası məhz bu üsyanın gedişində yaranmışdı.

1949-1959-cu illərdə hərbi paradlar hər il oktyabrın 1-də, ÇXR-in yaranması günü keçirilirdi. Sonradan ölkə rəhbərliyi büdcəyə qənaət məqsədilə paradları yalnız yuvarlaq tarixlərdə - hər on ildən bir keçirməyi qərara alıb.

### Ukrayna təyyarə əleyhinə yeni top sistemini nümayiş etdirib



Ukrayna yeni silahını sınaqdan keçirib.

"Ukroboronprom" dövlət konserninin mətbuat xidmətindən bildiriblər ki, təyyarə əleyhinə Ukrayna istehsalı olan "Şilka" top sisteminin sınağı uğurlu alınıb. Xarkov vilayətində yerləşən poliqonda Ukrayna Müdafiə Nazirliyi nümayəndələrinin iştirakı ilə keçirilən sınaq zamanı zirehli maşının bütün hissələri yoxlanılıb. Zirehli maşın dəqiqədə 3400 dəfə atış imkanına malikdir.

Bu silah növü ilə düşmənin təyyarə və helikopterlərindən müdafiə mümkün olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# "Dəniz Kuboku - 2017" müsabiqəsində dəniz hədəflərinə artilleriya atışları yerinə yetiriləcək

*Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmiləri dəniz hədəflərinə artilleriya atışları yerinə yetirmək üçün Xəzər dənizinə çıxıblar.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müsabiqənin bu epizodunda Rusiya HDD-nın "Qrad Sviyajsk" kiçik raket gəmisi birinci, Qazaxıstan HDQ-nin "Sarıarka" raket-artilleriya gəmisi ikinci, Azərbaycan HDQ-nin "G-124" gözətçi gəmisi üçüncü və İran HDQ-nin "Cövşən" raket kateri sonuncu olaraq artilleriya atışları üzrə tapşırıqları icra edəcəklər.

Avqustun 4-dək davam edəcək birinci mərhələdə hərbi gəmilərin ekipajları hava hədəf və nişanlarının, eləcə də üzən minaları təqlid edən hədəflərin məhv edilməsi üzrə yarışacaqlar.

## Ovqat

# Şəhid ömrü ömrümüzdə yaşayır...



Təbiətdə yaz çağı çiçək ləçəyində şeh, yayın bürküsündə bir əsimlik meh, qışın qış günü soyuqdan təntiyənə ocaq, qaranlıq gecədə yol azana çıraq, yarası gizildəyənə bağayarpağı, susayana bir içim su nədirsə, cəmiyyət üçün mənəvi dəyər bildiyimiz xeyirxahlıq da odur; xeyirxahlıq mənəvi dəyərlərdəndi. Yağan yağışlar xeyirxahlıq yolunu uğurlamaq üçün yağır, daşan sellər xeyirxahlığın yoluna atılan kör-kötüyü süpürüb atmaq üçün daşır, çeşmələr-bulaqlar xeyirxahlıqdan, xeyirxahlardan söz açır, güllər-çiçəklər xeyirxahlığın təntənəsi kimi açır, ... Bunları duya-duya, düşüncələrimizə köçürə-köçürə xeyirxahlığı bəşərilik düsturu bilmişik.

Hamımızın həyatında xeyirxahlar olub, var, olacaq da...

Atasızlığın sıxıntılarını, atasının şəhid olmasının qürurunu yaşaya-yaşaya çoxlarının küsəndiyi ömür yiyəsiydi Vasif. Babası Cənubi Azərbaycandan idi. Atası Binyamin Gəncədə doğulmuşdu. "Baba yurdum Savalanın ətəyindədi, ata yurdum Kəpəzin. Mən dağ adamıyam, baba" - deyərdi. "Vətən Vətəndi, nə o tay, nə bu tay..."...

Binyamin 1993-cü ildə Kəlbəcərdə döyüşdə şəhid olmuşdu. Məhinbanu "telinin birini ağ, birini qara hörüb" Vasifi böyütmüşdü. Vasif universitetdə təhsil ala-ala işləmişdi - sıxıntı çəkməmişdilər. İqtisadçı idi. Müsabiqə ilə işə düzəlmişdi. Maaşı dolanışıqlarına bəs edirdi...

Məhinbanu xəstələnmişdi. Vasif hər gün işdən sonra anasına baş çəkirdi. Ona elə gəlirdi ki, xəstəxanaya hər gəlişi anasının ağrı-acılarını yüngülləşdirir. Güləri orda görmüşdü. Qaraqaşlı, qaragözlü, həlim xasiyyətli tibb bacısının gülümsər çöhrəsi, mehriban davranışı, qayğıkeşliyi anasının da xoşuna gəlirmiş - anası sözarası anlatmışdı. Tanış olmuşdular. Baxışları isinişdirmişdi onları. Baxışları kələləşmişdi...

- Anam sağalandan sonra bura yenə gələ bilərəmmi? - Vasif çəkinə-çəkinə demişdi. Gülər gülümsünmüşdü...

Toyları olacaqdı.

Gülər razı olmasa da toya hazırlıq ərəfəsində Vasif bankdan üç min dollar kredit götürmüşdü. Ayda iki yüz otuz manat ödəyirdi. Dollar bahalaşmışdı. İndən belə ayda beş yüz manat ödəməliydi. Az qala maaşı qədər. Çətinlik çəkəcəkdilər. Üzə vurmasa da fikir çəkirdi.

İş yoldaşları məsləhət görmüşdülər ki, bankın müdiriylə görüşsün, kreditin müddətini uzatsalar, aylıq ödəniş azalar. Çarəsizlikdən getdi...

Bankın müdiri orta yaşlı kişiydi. Vasifi mehribanlıqla qarşıladı. Səbrlə dinlədi. Baxışlarını Vasifdən üzüb sənədlərə göz gəzdirdi. Qaşları çatıldı. Vasifə, sonra yenə sənədlərə baxdı: Nişapur Vasif Binyamin oğlu. Alnını ovuşdurdu. Nələrisə xatırlamaq istədi. Vasifə elə gəlirdi ki, ümidlə gəldiyi kabinetdə zaman dayanıb. Beş-üç saniyədən sonra eşidəcəyi kəlmələr ümidini çilikləyəcək: "Mümkün deyil"...

Müdir nəyisə dəqiqləşdirmək üçün handan-hana soruşdu:

- Atan harda işləyir, ay oğul?

Vasif tutuldu. Bu sorğunun ağrılarını neçə yerdə neçə dəfə yaşamışdı. Bu sualın ağrıları indi də ürəyinə yük oldu. Özünü toxdada bildi:

- Atam şəhid olub, - dilləndi.

- Harda, neçənci ildə? - sorğunun qəhər çalarını sezsə də özünü o yerə qoymadı:

- Kəlbəcərdə, 1993-cü ilin qışında. Mən bir yaşında olanda...

Müdir daha heç nə soruşmadı. Soruşa bilmədi. Gümanında yanılmamışdı. Ona tanış gələn ad-soyad ömrünə yazılmış ad-soyad idi. Görmək istədiyi, görə bilmədiyi, haqqında nəsə eşitmək istədiyi, eşidə bilmədiyi, tanıdığı, sevdiyi, döyüşdə hayına yetən döyüşçünün oğlu onun yanına xahişə gəlmişdi. Ayağa qalxdı. Pəncərəyə sarı addımladı. Bu üç-dörd addımlıq yol nə qədər uzunmuş!...

Yanağına düşən iki damla göz yaşını sildi. Dönüb Vasifə baxdı. Dodaqlarının səyridiyini sezmək çətin deyildi.

Döyüşlərdə tanıdığı, həminin baba çağırdığı Binyaminin oğlunu gözdolusu süzdü. Aradan on illər keçsə də ötənlərin doğmalığı, səmimiliyi yaddaşından silinməmişdi - gözlərin oxşarlığını hiss edincə qəhərləndi...

...Döyüş gedirdi. Ermənilər atışa-atışa geri çəkilirdi. Qəflətən ayağından yaralanmışdı. Birtəhər sarıyıb döyüşü davam etdirmişdi.

Yaralandığı ayağına yenə güllə dəymişdi. Yerə çökmüşdü. Yaranı sarımağa, qanı dayandırmağa heyi qalmamışdı. Bu an kimsə onun qoltuğunun altından girib arxaya çəkmişdi. Binyamin idi...

Müalicə olunub qayıdanda gözləri Binyamini axtarmışdı. Görə bilməmişdi. Çaşqınlıqla yan-yörəsinə göz gəzdirmişdi. İçində qəribə, başaçılmaz gümanlar vurnuxmuşdu. Haldan-hala üşdüyünü hiss edən Niyazi yaxınlaşıb əlini çiyninə qoymuşdu:

- Dünən xilaskarın da yaralandı, Səməd. Hospitala apardılar. Yaxınlığına mərmi düşmüşdü. Vəziyyəti ağırıydı..., - demişdi.

Matdım-matdım üzünə baxmış, heç nə soruşa bilməmişdi...

Səməd Qamışlı körpüsünün yaxınlığında ağır yaralanmışdı. Sol ayağını dizdən aşağı amputasiya etmişdilər. Binyaminin taleyindən xəbər tuta bilməmişdi...

...Səmədin əli Vasifin çiyninə endi...

Daxili telefonla kredit şöbəsinin rəisini çağırdı. O gələnə kimi baxışları Vasifin üzündən üzülmədi...

- Eşidirəm, rəis, - kredit şöbəsinin rəisi gəlmişdi.

Səməd Vasifin sənədlərini ona verdi:

- Borcu bağlayın. Gəlib ödəyəcəm.

Vasif nəsə demək istədi. Səməd imkan vermədi:

- Elə kişinin oğlunun banka borcu olmamalıdı. Nə qədər sağam, şəhid Binyamin Nişapurun ruhu qarşısında borclu olduğumu unuda bilmərəm, oğul. Toyunda atanın döyüşçü yoldaşlarının hamısını tanıyacaqsan. Binyamin hamımızın dostu idi. İndən belə oğlu dostumuz olacaq. Şəhidlərin ömrü qalanların ömrünə köçür. Ömrümüzə köçən ömürləri mərdliklə, qeyrətlə, səmimiyyətlə yaşatmalıyıq. Kişi kimi yaşatmalıyıq.., - dedi və Vasifi bağrına basdı.

Hava elə gözəliydi ki! Göy üzündə bircə əlçim də bulud yoxuydu...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# İdman

## "Qarabağ" "Şerif" komandasına 2:1 hesabı ilə qalib gəlib



Avqustun 1-də Ağdamın "Qarabağ" komandası futbol üzrə UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində cavab matçına çıxıb.

Səfərdə Moldovanın "Şerif" komandası ilə qarşılaşan Ağdam klubu 2:1 hesabı ilə qalib gələrək iki oyunun nəticəsinə görə Çempionlar Liqasının "play-off" mərhələsinə yüksəlib.

Xatırladaq ki, bu komandalar arasında Bakıdakı ilk görüş 0:0 hesabı ilə başa çatıb.

## Azərbaycan güləşçisi dünya çempionatının qızıl medalını qazanıb



Finlandiyanın Tampere şəhərində keçirilən güləş üzrə gənclər arasında dünya çempionatında Azərbaycan idmançısı Şahin Muxtarov rəqiblərini məğlub edərək qızıl medal və gənclərin dünya çempionu titulunu qazanıb.

İdmançımız finala qədər ardıcıl olaraq kanadalı Axtar Kieran İmranı, qırğızıstanlı Akbar Kenjebek Ulunu və rusiyalı Aslan Minkailovu üstələyib. Həlledici görüşdə Ermənistan təmsilçisi Karen Zurabyan ilə qarşılaşan Şahin yüksək əzmkarlıq nümayiş etdirərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

## Azərbaycan cüdoçusu Almaniyada keçirilən yarışda çempion olub




Almaniyanın paytaxtı Berlin şəhərində gənc cüdoçular arasında Avropa kuboku yarışına yekun vurulub.

Mötəbər yarışın sonuncu günündə Azərbaycan cüdoçuları daha 2 medal qazanıblar. 100 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Zelim Kotsiyev bütün rəqiblərindən güclü olaraq Berlində növbəti dəfə Azərbaycan bayrağını ucaldıb. Digər təmsilçimiz Naim Hüseynov (81 kq) Avropa kubokunun bürünc medalına sahib olub.

Xatırladaq ki, 37 ölkədən 513 (317 oğlan, 196 qız) idmançının qatıldığı mötəbər yarışda Azərbaycan millisi 20 cüdoçu (15 oğlan, 5 qız) ilə təmsil olunub.

## Azərbaycan döyüşçüsü Nəriman Abbasovun iyirminci sınağı



Azərbaycanın və "Qəbələ" idman klubunun döyüşçüsü Nəriman Abbasov bu gün növbəti sınağına çıxacaq.

İdmançımız MMA üzrə "Fight Night Global 71" turniri çərçivəsində qüvvəsini sınayacaq.

N.Abbasov Moskvada keçiriləcək turnirdə Dmitri Qorobetslə üz-üzə gələcək. Yüngül çəki dərəcəsində (70,3 kq) mübarizə aparacaq təmsilçimiz Rusiyanın Xabarovsk şəhərindən olan rəqibi ilə müqayisədə daha təcrübəlidir.

İyirminci döyüşünə çıxacaq N.Abbasovun hesabında 16 qələbə və 3 məğlubiyyət var. Hesabında 2 qələbə olan Qorobets isə yalnız 3-cü döyüşünə çıxacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əfqanov Rüfət Əsgər oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hümmətov Elvin Namiq oğluna 2017-ci ilin yanvarında verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 326
Nüsxə 4600